**AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ**
*Academic Journal of History and Idea*

**Review Article**

**Received: 10.07.2025** **Accepted: 20.01.2026**
**Henife Selifova** *
https://orcid.org/0009-0007-5106-5743

# II QARABAĞ MÜHARİBƏSİ MÖVZULU AZƏRBAYCAN NƏSRİNDƏ ŞƏHİD VƏ QAZİ OBRAZLARININ BƏDİİ TƏCƏSSÜMÜ (2020–2024)**

## The Artistic Representation of Martyr and Veteran Figures in Azerbaijani Prose on the Second Karabakh War (2020–2024)

***Xülasə***

*Bu məqalədə Birinci Qarabağ müharibəsindən (1990-cı illər) İkinci Qarabağ müharibəsinə (2020) qədər olan dövrdə Azərbaycan ədəbiyyatında şəhid və qazi obrazlarının formalaşma və transformasiya prosesi araşdırılır. Tədqiqatda müharibə ədəbiyyatının milli yaddaşın bədii ifadə vasitəsi kimi funksiyası və Qarabağ mövzusunun ideya-estetik inkişaf mərhələləri təhlil olunur. Məqalədə məğlubiyyət və itki estetikasından qalibiyyət və milli qürur poetikasına keçid ədəbi diskurs səviyyəsində dəyərləndirilir. Xüsusilə hekayə janrında şəhidlik anlayışının sakral məna kəsb etməsi, qazi obrazlarının isə fiziki və psixoloji travmaların daşıyıcısı kimi təqdim olunması ön plana çıxarılır. Nəticədə göstərilir ki, İkinci Qarabağ müharibəsi mövzulu ədəbiyyat milli özünüdərk prosesini gücləndirməklə yanaşı, humanist dəyərlərin bədii təcəssümünə çevrilmişdir.*
***Açar sözlər:*** *II Qarabağ müharibəsi, Azərbaycan nəsri, şəhid obrazı, qazi obrazı, qalibiyyət poetikası.*

***Abstract***

*This article examines the process of formation and transformation of martyr and veteran figures in Azerbaijani literature from the First Karabakh War of the 1990s to the Second Karabakh War of 2020. The study analyzes war literature as an artistic medium of national memory and traces the ideological and aesthetic stages of development of the Karabakh theme. It evaluates, at the level of literary discourse, the transition from an aesthetics of defeat and loss to a poetics of victory and national pride. Particular emphasis is placed on the short story genre, where martyrdom acquires a sacral meaning, while veteran figures are portrayed as bearers of physical and psychological trauma. The article concludes that literature centered*

* *Junior Researcher, Doctoral Candidate, Institute of Literature named after Nizami Ganjavi, Azerbaijan National Academy of Sciences, Azerbaijan, hanife-email@braincenter.group*
** Citation: Səlifova, H. (2026). II Qarabağ Müharibəsi Mövzulu Azərbaycan Nəsrində Şəhid və Qazi Obrazlarının Bədii Təcəssümü (2020–2024). *Akademik Tarih ve Düşünce Dergisi, 13*(1), 27-33.
*Copyright and License Statement*
*All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc/4.0/). Under this license, the article may be used, reproduced, shared, adapted, and translated in any medium or format for non-commercial purposes, provided that proper scholarly attribution is given to the author(s) and the journal. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s). The journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.*

*on the Second Karabakh War not only reinforces processes of national self-awareness but also evolves into an artistic manifestation of humanistic values.*

***Keywords:*** *Second Karabakh War, Azerbaijani prose, martyr figüre, veteran figüre, poetics of victory.*

**Giriş**

2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının hərbi-siyasi qələbəsindən sonra Azərbaycan ədəbiyyatında mövzu, diskurs və estetik yanaşma baxımından nəzərəçarpacaq dəyişikliklər müşahidə olunmağa başlamışdır. Bu mərhələdə ədəbiyyat artıq yalnız müharibə təcrübəsinin bədii inikası deyil, həm də qalib xalqın tarixi yaddaşının, milli kimlik şüurunun və müstəqil dövlətçilik ideyasının ifadə vasitəsi kimi çıxış edir. Qələbədən sonrakı ədəbi proseslərdə milli varlıq anlayışı yeni estetik meyarlar və ideoloji istiqamətlər fonunda formalaşaraq müasir müharibə ədəbiyyatının əsas göstəricilərindən birinə çevrilmişdir.

Müasir tədqiqatlarda vurğulandığı kimi, İkinci Qarabağ müharibəsi dövründə və ondan sonra yaranan Azərbaycan ədəbiyyatı ictimai-siyasi proseslərə fəal reaksiya verən, vətəndaşlıq mövqeyini ön plana çıxaran bir bədii sistem kimi səciyyələnir. Bu ədəbiyyat nümunələri müharibə reallıqlarını yalnız təsvir etmir, eyni zamanda cəmiyyətin mənəvi səfərbərliyində və milli özünüdərkin möhkəmlənməsində funksional rol oynayır (Həbibbəyli, 2022). Beləliklə, yeni mərhələdə formalaşan müharibə ədəbiyyatı əvvəlki dövrlərin bədii nümunələrindən ideoloji prinsip, estetik dəyər və poetik potensial baxımından fərqlənir.

Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu 1990-cı illərdən etibarən torpaqların işğalı, müharibə travması və milli faciə kontekstində inkişaf etmiş, bu istiqamətdə yaradılan əsərlər milli ruhun formalaşmasında mühüm rol oynamışdır. Lakin 2020-ci il müharibəsindən sonra Qarabağ mövzusu yeni məzmun və semantik çalarlar qazanmış, məğlubiyyət diskursunu qalibiyyət diskursu əvəz etmişdir. Müasir mərhələdə Qarabağ mövzusu artıq yalnız itkilərin deyil, bərpa, qayıdış və tarixi ədalətin bərpası ideyalarının bədii ifadə müstəvisinə çevrilmişdir. Bu kontekstdə formalaşan müharibə ədəbiyyatı qalib xalqın milli qürurunun, tarixi haqqının və müstəqil gələcəyə inamının bədii təcəssümü kimi dəyərləndirilə bilər. Azərbaycan ədəbiyyatı mövcud mərhələdə öz əsas ideya-estetik gücünü Qarabağ mövzusuna yönəldərək hadisələrə qalib dövlət və cəmiyyət mövqeyindən yanaşmağı prioritet məqsəd kimi müəyyənləşdirir. Bu yanaşma çağdaş ədəbi diskursda müharibə mövzusunun yeni interpretasiya imkanlarını ortaya qoyur və Azərbaycan müharibə ədəbiyyatının inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını təşkil edir.

**İkinci Qarabağ müharibəsindən sonra ədəbi diskursun genişlənməsi (2020–2024)**

İkinci Qarabağ müharibəsi Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətində milli qürur və qalibiyyət ovqatının güclənməsinə səbəb olmuşdur. Bu mərhələdə şair və yazıçılar müstəqil, bütöv və suveren Azərbaycan obrazını daha sistemli və ideya baxımından aydın şəkildə təqdim

etməyə başlamışlar. Ədəbi mətnlərdə milli kimlik, dövlətçilik və tarixi yaddaş anlayışları qalibiyyət diskursu çərçivəsində yenidən şərh olunmuşdur.

Qələbədən sonrakı dövrdə ədəbiyyatşünas alimlərin Vətən müharibəsinə həsr olunmuş elmi məqalə və tədqiqatlarında əvvəlki mərhələnin — otuz illik işğal və məğlubiyyət kontekstində formalaşmış Qarabağ ədəbiyyatı ilə yeni mərhələnin qalib müharibə ədəbiyyatı müqayisəli şəkildə təhlil edilmişdir. Bu tədqiqatlarda hadisələrə milli düşüncə və çağdaş ədəbi diskurs baxımından yanaşılmış, müharibə mövzusunun ideoloji və estetik transformasiyası elmi əsaslarla izah olunmuşdur (Həbibbəyli, 2022). Müasir ədəbi tənqiddə qalibiyyət anlayışının bədii və elmi şərhi xüsusi yer tutur. Bu baxımdan müharibə sonrası dövrdə yazılmış *Qalibiyyət zamanı: çağdaş ədəbiyyatda diskursun dəyişməsi* kimi araşdırmalarda ədəbi diskursun struktur və semantik xüsusiyyətlərində baş verən dəyişikliklər sistemli şəkildə təhlil olunmuşdur (Əlişanoğlu, 2022). Eyni zamanda, müharibə mövzusunun ideoloji-estetik mahiyyəti *Müqəddəs savaşımız və sözümüz* kimi məqalələrdə vətəndaşlıq mövqeyi və milli məsuliyyət prizmasından şərh edilmişdir (Rüstəm Kamal, 2020). Bədii ədəbiyyatda da Zəfər mövzusu aparıcı ideya xəttinə çevrilmişdir. Poeziya hadisələrə operativ və emosional reaksiya vermə xüsusiyyətini qorusa da, nəsr sahəsində də Vətən, qalibiyyət və milli yaddaş mövzularına həsr olunmuş əsərlərin sayı artmışdır. Xüsusilə hekayə janrı müharibə və postmüharibə reallıqlarının çevik və yığcam şəkildə təqdimində daha funksional janr kimi ön plana çıxmışdır. Nəsrin bu qısa və dinamik forması 44 günlük müharibə dövründə və sonrasında baş verən hadisələrin bədii ümumiləşdirilməsində roman və povestlərlə müqayisədə daha operativ imkanlar nümayiş etdirmişdir (Yusifli, 2024).

**Hekayə janrının müasir müharibə diskursunda rolu**

Müasir ədəbiyyatşünaslıqda hekayə janrının poetik imkanları xüsusi maraq doğurur. Bu janrın geniş tədqiqat obyektinə çevrilməsinin əsas səbəblərindən biri onun struktur bütövlüyü, dərin semantik tutumu və insan psixologiyasına təsir gücü ilə bağlıdır. Hekayə janrı kiçik həcmli olmasına baxmayaraq, çoxqatlı mənalar sistemi və bitib-tükənməyən interpretasiya imkanları ilə seçilir; bu mənada hekayələr bəzən romanlardan daha geniş bədii ifadə sahəsini əhatə edir (Yusifli, 2024). 2020-ci ildən etibarən Azərbaycan bədii nəsrində Qarabağ və Zəfər mövzusunda çoxsaylı hekayə nümunələri meydana çıxmışdır. Bu hekayələrin süjet xəttində Birinci Qarabağ müharibəsi dövründə yaşanan yurd itkisi, ağrı və travma motivləri yeni mərhələdə qələbə və qayıdış kontekstində poetik məna qazanır. Şəhid və qazilərin yaddaşlarda yaşayan obrazlarının yaradılması müasir ədəbiyyatın əsas ideya istiqamətlərindən birinə çevrilmişdir. Bu baxımdan Şəhidlik mövzusu bədii düşüncədə yeni semantik çalarlar qazanmış, mənəvi məsuliyyət və borc anlayışı ilə əlaqələndirilmişdir (Əlişanoğlu, 2022). Şəhidlik mövzusu 1990-cı illərdən etibarən Azərbaycan

ədəbiyyatında prioritet istiqamətlərdən biri olmuşdur. Zəfər ruhlu yeni bədii nümunələrdə də bu mövzuya ali və sakral bir dəyər kimi yanaşılır. Qarabağ və Vətən müharibəsi mövzusunda yazılmış hekayələrdə şəhidlik həm fərdi talelər, həm də kollektiv yaddaş prizmasından təqdim edilir. Bu kontekstdə Kamal Abdullanın *Səngərdəki səs*, Tural Cəfərlinin *44 nömrəli palata*, Orxan Həsəninin *Qırmızı ayaqqabılar* və Gülxani Pənahın *Əsrin "Oğuznamə"sini yazanlar* kimi əsərləri müasir hekayə nümunələri sırasında qeyd olunur.

Kamal Abdullanın *Səngərdəki səs* hekayəsi ümumiləşdirilmiş bir obraz vasitəsilə müharibə iştirakçılarının daxili dünyasını əks etdirir. Əsərdə müharibə insanının yaşam tərzi, onun şüurunda və yaddaşında daim səslənən səslərin assosiasiyası kimi təqdim olunur. Hekayənin qəhrəmanı olan gənc leytenant müharibədən sonra cəmiyyətə uyğunlaşmaqda çətinlik çəkən, düşüncəsi səngər, atəş və düşmən anlayışları ilə məhdudlaşmış bir obraz kimi təsvir edilir. Müharibənin fiziki olaraq bitməsinə baxmayaraq, onun psixoloji təsirinin davam etməsi hekayənin əsas ideya xəttini təşkil edir. Müharibənin izlərini daşıyan insanların sonrakı həyatı ruhi gərginlik və yaddaş travmaları fonunda təqdim olunur; bu səslər onların daxili aləmində daimi şəkildə yaşayaraq əsgərləri yenidən səngərə qaytarır (Kamal Abdulla, t.y.a). Hekayənin məzmunundan aydın olur ki, müharibədən qalibiyyətlə qayıtmış gənc leytenant və onun cəbhə yoldaşlarının şərəfinə təşkil edilmiş məclisdə səslənən kamança musiqisi qəhrəmanın yaddaş mexanizmini hərəkətə gətirir. Tost deyənləri müşayiət edən bu musiqi gənc leytenantın şüurunda müharibə səhnələrini yenidən canlandırır və onu real məkan-zaman mühitindən uzaqlaşdırır. Kamança detalı hekayədə yalnız musiqi aləti kimi deyil, personajın daxili psixoloji vəziyyətinin simvolik ifadəsinə çevrilir. Kamançanın susması ilə qəhrəmanın mövcud reallıqla əlaqəsi zəifləyir və o, öz daxili dünyası ilə üz-üzə qalır. Bu məqamda müharibə travmasının qalıcı xarakter daşıdığı, qəhrəmanın əvvəlki həyatına tam qayıtmasının mümkünsüzlüyü bədii şəkildə ifadə olunur.

Hekayədə səslənən "kamança səsi" müharibənin yaddaşda buraxdığı izlərin metaforası kimi təqdim edilir. Qəhrəman ətraf mühitdə eşitdiyi səsləri daim səngərdəki səslərlə müqayisə edir və bu assosiasiyalar onun həyatının ayrılmaz hissəsinə çevrilir. Müharibənin bitməsinə baxmayaraq, onun psixoloji təsiri davam edir və bu təsir qəhrəmanı ömür boyu müşayiət edir (Kamal Abdulla, t.y.b). Kamal Abdulla bu hekayəni qələmə alarkən Qarabağ müharibəsi hələ yekunlaşmamışdı. Buna baxmayaraq, mətndə qələbəyə inam, həyatın qeyri-müəyyənliyi və müharibənin yaratdığı özgələşmə motivləri paralel şəkildə təqdim olunur. Bu yanaşma hekayənin bədii bütövlüyünü təmin edən əsas amillərdən biri kimi qiymətləndirilə bilər. Əsər müharibənin insan psixologiyasında yaratdığı təsirləri ümumiləşdirilmiş bədii model səviyyəsində göstərməsi baxımından əhəmiyyətlidir.

Müharibə qazilərinin taleyi hekayədə yalnız fiziki itkilərlə deyil, həm də dərin mənəvi sarsıntılarla əlaqələndirilir. Qəhrəman öz daxili səsinə — müharibənin amansız reallıqlarına qalib gələ bilmir və sanki bu səslərin arxasınca getməyə məhkum olur. Hekayədə səslənən əmrlər, döyüş çağırışları və səngər reallığı qəhrəmanın yaddaşında yenidən canlanır və onu real həyatdan uzaqlaşdırır (Kamal Abdulla, t.y.b). Hekayədə "səs" motivi simvolik və çoxqatlı məna daşıyır. Bu səs müharibənin dağıdıcı mahiyyətini, qorxu və ümidin paralel mövcudluğunu, eyni zamanda itki və yaddaş travmasını ifadə edir. Leytenantın daxili aləmində səslərin toqquşması müharibənin insan psixologiyasında yaratdığı dərin izlərin bədii təcəssümünə çevrilir.

İkinci Qarabağ müharibəsinə həsr olunmuş şəhidlik mövzusunda yazılmış əsərlərdən biri də Tural Cəfərlinin *44 nömrəli palata* hekayəsidir. Əsərdə əsgər Ağayevin döyüş yolu və şəhidlik məqamı süjet boyu ardıcıl şəkildə izlənilir. Müharibədə yaralanan əsgəri nə tibbi müdaxilə, nə də nişanlısının ümidi xilas edə bilir. Hekayənin adı rəmzi məna daşıyır və 44 gün davam edən Vətən müharibəsini qəhrəmanın şəxsi taleyi ilə əlaqələndirir. Əsgər Ağayev Qarabağın azadlığını görmədən, qələbə arzusu ilə həyatla vidalaşır (Cəfərli, 2023). Ədəbiyyatşünaslıqda qəbul olunduğu kimi, hər bir mətn digər mətnlərlə müxtəlif səviyyələrdə əlaqə yaradır və bu əlaqələr yeni semantik qatların formalaşmasına şərait yaradır (Quliyev, 2019). Bu prinsip müasir hekayə mətnlərinin məna qatlarının və bədii quruluşunun şərhində metodoloji çərçivə kimi istifadə oluna bilər.

Hekayələrdə müharibə gerçəkliyi, qələbə sevinci və şəhidlik anlayışı mənəvi-psixoloji müstəvidə ümumiləşdirilmiş faktorlar kimi təqdim olunur və milli düşüncəni oyadan əsas motivlərdən birinə çevrilir. Müasir Azərbaycan ədəbiyyatı şəhidlik mövzusuna xüsusi diqqət yetirərək bu anlayışı milli yaddaşın və tarixi məsuliyyətin daşıyıcısı kimi bədii diskursa daxil edir. Tarixi yaddaşın aktiv saxlanılması, milli ruhun qorunması və sakral dəyərlərə bağlılıq baxımından bu mövzuda bədii mətnlərin yaradılması ədəbi proses üçün mühüm əhəmiyyət daşıyır.

Bu kontekstdə Orxan Həsəninin *Qırmızı ayaqqabılar* hekayəsində hadisələr şəhid olacaq əsgərin dilindən nəql olunur. Qəhrəmanın sevdiyi insanın gündəlik həyatına aid xırda detalları xatırlaması onun daxili dünyasını və emosional gərginliyini üzə çıxarır. Hekayədə duyğu, yaddaş və emosional motivlər əsas üslub qatını formalaşdırır. Xatırlama aktının intensivliyi və fasiləsizliyi bədii kompozisiyanın əsas dayağına çevrilir; bu proses qəhrəmanın son nəfəsi ilə bağlı psixoloji vəziyyətini dərinləşdirir (Yusifli, 2022). Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında yalnız bədii deyil, həm də tarixi-fəlsəfi müstəvidə dəyərləndirilmişdir. Yaşar Qarayev Qarabağ problemini milli yaddaş və tarixi məsuliyyət kontekstində şərh edərək bu mövzunun xalqın mənəvi varlığı ilə üzvi şəkildə bağlı olduğunu vurğulamışdır. Onun fikrincə, torpağın və azadlığın qorunması milli mövcudluğun əsas şərtidir və bu dəyər itirildiyi təqdirdə mənəvi legitimlik də sual altına düşür

(Qarayev, 2016). Zəfər mövzusu çağdaş Azərbaycan hekayəsində qəhrəmanlıq və milli birlik ideyası ilə sıx şəkildə əlaqələndirilir. Bu baxımdan Gülxani Pənahın *Əsrin "Oğuznamə"sini yazanlar* hekayəsində müasir dövrün xüsusi təyinatlı hərbçiləri epik qəhrəmanlıq ənənəsi fonunda təqdim olunur. Hekayədə qəhrəmanların döyüş yolu mifoloji "Oğuznamə" motivləri ilə paralelləşdirilir və bu yanaşma milli kimliyin davamlılığını vurğulayan bədii model yaradır (Pənah, 2024). Hekayədə yaradılan igid-ərən obrazları tarixi qəhrəmanlıq yaddaşının daşıyıcıları kimi çıxış edir və milli kimlik anlayışının qorunub saxlanılmasının simvoluna çevrilir. Qəhrəmanların rəşadəti və vətənpərvərlik mövqeyi Qarabağ mövzusunun çağdaş ədəbi diskursda ideya-estetik yükünü artırır.

İkinci Qarabağ müharibəsi dövründə mülki əhalinin hədəfə alınması faktı da bədii ədəbiyyatda öz əksini tapmışdır. Bu mövzu çərçivəsində yazılan hekayələrdə günahsız insanların faciəsi ümumbəşəri humanist dəyərlər prizmasından təqdim olunur. Bu tip mətnlərdə əsas diqqət insan həyatının toxunulmazlığına və müharibənin mülki cəmiyyət üçün yaratdığı fəsadlara yönəlir. Nəticə etibarilə, müasir Azərbaycan hekayəsi Qarabağ və Zəfər mövzusunu milli yaddaş, şəhidlik və mənəvi məsuliyyət kontekstində sistemli şəkildə bədii diskursa daxil edir. Bu hekayələr həm tarixi reallıqların yaddaşda saxlanılmasına, həm də milli kimlik şüurunun möhkəmlənməsinə xidmət edən mühüm ədəbi mətnlər kimi qiymətləndirilə bilər.

**Nəticə**

Beləliklə, Vətən müharibəsi mövzulu ədəbiyyat müasir Azərbaycan bədii təfəkküründə keyfiyyətcə yeni mərhələnin formalaşmasına səbəb olmuşdur. Müharibədən əvvəl əsasən məğlubiyyət, itki və travma motivləri üzərində qurulan ədəbi diskurs postmüharibə mərhələsində qalibiyyət, milli qürur və gələcəyə inam poetikasına transformasiya olunmuşdur. Bu dəyişiklik həm mövzu seçimi, həm də ideya-estetik yanaşma baxımından Azərbaycan ədəbiyyatının inkişaf dinamikasını aydın şəkildə göstərir. Yeni mərhələdə şəhid və qazi obrazları milli-mənəvi dəyərlər kontekstində təqdim olunaraq bədii təfəkkürdə xüsusi semantik yük qazanmışdır. Şəhidlik anlayışı sakral və əbədi dəyər kimi interpretasiya edilir, qazi obrazları isə müharibənin insan taleyində buraxdığı fiziki və psixoloji izlərin daşıyıcısı kimi çıxış edir. Bu obrazlar vasitəsilə müharibə təcrübəsi yalnız tarixi hadisə kimi deyil, həm də kollektiv yaddaşın və milli kimliyin formalaşdırıcı elementi kimi təqdim olunur. Müasir Azərbaycan nəsrində, xüsusilə hekayə və esse janrlarında postmüharibə travması psixoloji dərinliklə təsvir edilir. Bu mətnlərdə fərdi talelər ümumiləşdirilərək sosial-mənəvi problemlərin bədii modelinə çevrilir. Eyni zamanda, müxtəlif janrların — hekayə, povest, publisistika və sənədli nəsrin — paralel inkişafı müharibə mövzusunun çoxşaxəli şəkildə ifadəsinə imkan yaradır və cəmiyyətin müxtəlif sosial təbəqələrinin bədii portretini formalaşdırır. Ədəbiyyatın bu mərhələsi yalnız estetik funksiyanı yerinə yetirmir, həm də

sosial məsuliyyət, milli yaddaşın qorunması və ictimai şüurun formalaşdırılması baxımından mühüm rol oynayır. Müharibə mövzulu bədii mətnlər vasitəsilə azadlığın dəyəri, birlik ideyası və tarixi məsuliyyət anlayışı gələcək nəsillərə ötürülür. Bu baxımdan İkinci Qarabağ müharibəsinin qalibiyyət diskursu Azərbaycan ədəbiyyatını dünya müharibə ədəbiyyatı kontekstində yeni interpretasiya müstəvisinə çıxarır və onun təcrübəsi universal humanist dəyərlərin bədii ifadəsi baxımından aktual və əhəmiyyətli görünür.

**Kaynaklar**

Cəfərli, T. (2023, 23 dekabr). 44 nömrəli palata. *Ədəbiyyat qəzeti*, s. 9.

Əlişanoğlu, T. (2022). Qalibiyyət zamanı: Çağdaş ədəbiyyatda diskursun dəyişməsi. *Akademiyanın Şuşanaməsi: Ədəbi-tarixi ənənə və gələcəyə baxış* beynəlxalq elmi konfransının materialları (s. 19). Elm.

Həbibbəyli, İ. (2022, 5 mart). Ədəbiyyat qəzeti: Xüsusi buraxılış. *Ədəbiyyat qəzeti*, s. 2–3.

Kamal Abdulla. (t.y.a). Ən yeni tarixin ərəfə mətni: Səngərdəki səs. http://kamalabdulla.az/4392/en-yeni-tarixin-erefe-metni-sengerdeki-ses/

Kamal Abdulla. (t.y.b). Səngərdəki səs – Kamal Abdulladan yeni hekayə. https://525.az/news/154132-sengerdeki-ses--kamal-abdulladan-yeni-hekaye

Məmməd, T. (2020, 24 oktyabr). Qarabağ savaşı: Sözümüz və özümüz. *Ədəbiyyat qəzeti*, s. 21.

Pənah, G. (2024, 20 yanvar). Əsrin "Oğuznamə"sini yazanlar. *Ədəbiyyat qəzeti*, s. 18.

Qarayev, Y. (2016). Tarixin Qarabağ yaddaşı: Dünən və bu gün. *Seçilmiş əsərləri* (C. IV). Elm.

Quliyev, Q. (2019). *Ədəbi cərəyanlar və istiqamətlər*. OL NPKT.

Rüstəm Kamal. (2020, 3 oktyabr). Müqəddəs savaşımız və sözümüz. *Ədəbiyyat qəzeti*, s. 27.

Yusifli, C. (2022, 21 may). Müharibədən necə yazmalı. *Ədəbiyyat qəzeti*, s. 19.

Yusifli, C. (2024, 14 sentyabr). Hekayələrin ilk və son cümləsi. *Ədəbiyyat qəzeti*, s. 7.